*Bakının memarlıq inciləri*

**İnşasına 1977-ci ildə başlanan və iyirmi yeddi il ərzində Bakı İdman-Konsert Kompleksi kimi tanıdığımız, 2004-cü ilin mart ayından isə Prezident İlham Əliyevin sərəncamı ilə Heydər Əliyev adına İdman Sarayı adını daşıyan arenanın təməlinin qoyulmasından 45 il ötür. Tbilisi prospektində yerləşən bu əzəmətli saray indi gözəl paytaxtımız Bakının memarlıq incilərindən biri hesab olunur.**

# Heydər Əliyev adına İdman Sarayı




Qırx beş il əvvəl Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə inşasına başlanan İdman-Konsert Kompleksi 1990-cı ildə istifadəyə verilib, sonralar, "Bakı–2015" Birinci Avropa Oyunları ərəfəsində isə əsaslı təmir olunub.

İndiyə qədər bir çox mötəbər yarışda–Azərbaycan, Avropa və dünya çempionatlarında, beynəlxalq turnirlərdə tamaşaçılar, iştirakçılar və rəsmi qonaqlar tərəfindən ünvanına çoxlu xoş sözlər söylənilən bu rahat və yaraşıqlı saray ümummilli liderimiz tərəfindən Azərbaycanın idman ictimaiyyətinə əvəzsiz bir töhfədir. Artıq onilliklərdir ki, bakılılar və onların qonaqları burada keçirilən yarışlarda maraqlı və gərgin mübarizədən böyük zövq alırlar.

İdman həvəskarlarımız tribunaları səkkiz min nəfərə qədər tamaşaçı tutan Heydər Əliyev adına İdman Sarayında neçə-neçə rəsmi yarışda–qadın voleybol komandalarının, güləşçilərin, cüdoçuların, bədii gimnastların olimpiya təsnifat turnirlərində, birinci Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında idmanın bir sıra növlərində həmvətənlərimizin və onların rəqiblərinin ustalığını qiymətləndirmək və alqışlamaq imkanı qazanmışlar. Yarış iştirakçıları da həmişə bacarıqlarını tam nümayiş etdirmək üçün onlara hər cür şərait yaradılan bu möhtəşəm sarayı təşkilatçılara minnətdarlıq hissi ilə tərk etmişlər.

Yuxarıda əzəməti ilə fəxr etdiyimiz sarayın 2004-cü ilin mart ayından Heydər Əliyevin adını daşıdığını xatırlatdıq. Həmin il Olimpiya oyunları ili idi və idmançılarımız müasir olimpiadaların vətəni Yunanıstanın paytaxtı Afinada keçiriləcək XXVIII Olimpiya Oyunlarına hazırlaşırdılar. Olimpiada ərəfəsində, elə həmin mart ayında Azərbaycan dövlətinin rəhbəri, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı Olimpiya ordeninə layiq görülməsi barədə BOK-un mənzil-qərargahından alınan xəbər ölkəmizdə rəğbətlə qarşılandı. Olduqca xoş təsadüf idi.

Cənab Prezident artıq astanasında dayandığımız 2023-cü ili ölkəmizdə "Heydər Əliyev İli" elan etmişdir. Bütün Azərbaycan üçün qarşıdakı əlamətdar ildə respublikamızın hər yerində bu münasibətlə müxtəlif idman tədbirləri də keçiriləcəkdir. Əlbəttə, onların bir qismi 45 il əvvəl ümummilli liderin təşəbbüsü ilə inşasına başlanan, bu gün isə təkcə Bakıda yox, dünyada ən müasir idman komplekslərindən sayılan Heydər Əliyev adına İdman Sarayında təşkil olunacaq. Yenə hamı dahi şəxsiyyəti minnətdarlıqla xatırlayacaq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***